**“Azərbaycan Respublikası Prezidentinin seçkilərində imza vərəqələrində, habelə namizədlərin, siyasi partiyaların, siyasi partiyalar bloklarının təqdim etdikləri sənədlərdə olan məlumatların düzgünlüyünün yoxlanılması Qaydaları”na dəyişikliklər edilməsinə dair Mərkəzi Seçki Komissiyasının**

**QƏRARI**

Azərbaycan Respublikası qanunvericiliyinin vaxtaşırı təkmilləşdirilməsindən və seçki (referendum) münasibətlərinin daha mükəmməl nizama salınması zərurətindən irəli gələn Azərbaycan Respublikası Seçki Məcəlləsinin tətbiqi və seçkilərin (referendumun) hazırlanıb keçirilməsi ilə əlaqədar Mərkəzi Seçki Komissiyası tərəfindən qəbul edilmiş bir sıra hüquqi aktların təkmilləşdirilməsinə ehtiyac yaranmışdır.

Ona görə də, qüvvədə olan Mərkəzi Seçki Komissiyasının “Azərbaycan Respublikası Prezidentinin seçkilərində imza vərəqələrində, habelə namizədlərin, siyasi partiyaların, siyasi partiyalar bloklarının təqdim etdikləri sənədlərdə olan məlumatların düzgünlüyünün yoxlanılması Qaydaları”nın struktur elementləri “Normativ hüquqi aktlar haqqında” Azərbaycan Respublikasının 21 dekabr 2010-cu il tarixli Konstitusiya Qanununun 30-cu maddəsinə uyğunlaşdırılmalı və ona “Azərbaycan Respublikasının Seçki Məcəlləsində dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikasının 18 iyun 2010-cu il tarixli Qanununa uyğun olaraq müvafiq dəyişikliklər edilməlidir.

Mərkəzi Seçki Komissiyası öz səlahiyyətləri daxilində həmin dəyişikliklərin rəsmi dərc edilməsi və qüvvəyə minməsi ilə bağlı qanunvericilikdə nəzərdə tutulmuş tədbirlərin görülməsini təmin etməlidir.

Mərkəzi Seçki Komissiyası yuxarıda qeyd edilənləri əsas götürərək, “Normativ hüquqi aktlar haqqında” Azərbaycan Respublikasının Konstitusiya Qanununun 75.2-ci, 78.2-ci və 78.3-cü, Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci və 28.4-cü maddələrinə uyğun olaraq **qərara alır:**

1. Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 4 iyul 2008-ci il tarixli 6/23-7 saylı Qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Prezidentinin seçkilərində imza vərəqələrində, habelə namizədlərin, siyasi partiyaların, siyasi partiyalar bloklarının təqdim etdikləri sənədlərdə olan məlumatların düzgünlüyünün yoxlanılması Qaydaları”na aşağıdakı dəyişikliklər edilsin:

1.1. Qaydaların adı aşağıdakı redaksiyada verilsin:

“Azərbaycan Respublikası Prezidentinin seçkilərində namizədin irəli sürülməsinin təsdiq edilməsi və qeydə alınması üçün təqdim edilmiş sənədlərdə olan məlumatların düzgünlüyünün yoxlanılması Qaydaları”

1.2. Aşağıdakı məzmunda preambula əlavə edilsin:

“Azərbaycan Respublikası Prezidentinin seçkilərində namizədliyin irəli sürülməsinin təsdiq edilməsi və qeydə alınması üçün Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (bundan sonra – Mərkəzi Seçki Komissiyası) təqdim edilmiş imza vərəqələrində və digər sənədlərdə olan məlumatların düzgünlüyünün yoxlanılması Azərbaycan Respublikasının Seçki Məcəlləsinin (bundan sonra – Seçki Məcəlləsi) 53-cü, 54-cü, 56-cı, 57-ci, 58-ci, 59-cu və 60-cı, 180-ci, 181-ci, 182-ci maddələri ilə və bu Qaydalarla tənzimlənir.”

1.3. Preambuladan sonraya “1. Ümumi müddəalar” sözləri, Qaydaların sonuncu abzasından sonraya “Namizədin irəli sürülməsinin təsdiq edilməsi və qeydə alınması üçün təqdim edilmiş sənədlərdə olan məlumatların düzgünlüyünün yoxlanılması bu sənədə əlavə edilmiş cədvəl üzrə (Qaydalara 1 saylı əlavə) aparılır” abzası əlavə edilərək Qaydalar müvafiq olaraq nömrələnsin.

1.4. 1.1-ci bənddə “50” rərəmi “40” rəqəmi ilə, cədvəlin “II mərhələ - Namizədin qeydə alınması” hissəsindən sonra “imza toplayan subyektlər:” hissəsindən əvvəldə “65” rəqəmi “50” rəqəmi ilə, “40” rəqəmi “30” rəqəmi ilə, “10” rəqəmi isə 7 rəqəmi ilə əvəz edilsin.

1.5. Bu Qaydalara aid cədvələ “Məlumatları yoxlama cədvəli” başlığı əlavə edilməklə “Qaydalara 1 saylı əlavə”, 1 saylı əlavə isə müvafiq olaraq “Qaydalara 2 saylı əlavə” hesab edilsin.

2. Mərkəzi Seçki Komissiyası öz səlahiyyətləri daxilində bu Qərarın rəsmi dərc edilməsi və qüvvəyə minməsi ilə bağlı qanunvericilikdə nəzərdə tutulmuş tədbirlərin görülməsini təmin etsin.

| | |
|---|---|
| Sədr | Məzahir Pənahov |
| Katib | Arifə Muxtarova |
| Katib | Mikayıl Rəhimov |